**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 33/11**

**Bakı şəhəri** **25 noyabr 2022-ci il**

**Ailə kəndli təsərrüfatı üzrə uçot sənədlərinin və onların doldurulmasına dair göstərişlərin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 8.10-cu, 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş "Ailə kəndli təsərrüfatının uçotunun aparılması Qaydaları"nın 5-ci və 6-cı hissələrindən irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "Malların (işlərin və xidmətlərin) təqdim edilməsinə dair ailə kəndli təsərrüfatının əməliyyatlarının uçot kitabı" 1-uçot №-li forma təsdiq edilsin (əlavə 1).
2. "Malların (işlərin və xidmətlərin) təqdim edilməsinə dair ailə kəndli təsərrüfatının əməliyyatlarının uçot kitabı" 1-uçot № -li formanın doldurulmasına dair göstəriş" təsdiq edilsin (əlavə 2).
3. "Ailə kəndli təsərrüfatının dövriyyəsi haqqında" 1-AKT №-li illik statistika hesabatı forması təsdiq edilsin (əlavə 3).
4. "Ailə kəndli təsərrüfatlarının uçotunun reyestr kitabı" 1-reyestr №-li forma təsdiq edilsin (əlavə 4).
5. "Ailə kəndli təsərrüfatlarının uçotunun reyestr kitabı" 1-reyestr №-li formanın doldurulmasına dair göstəriş" təsdiq edilsin (əlavə 5).
6. "Ailə kəndli təsərrüfatı üzrə uçot sənədlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2006-cı il 30 mart tarixli 7/11 nömrəli sərəncamının 1-ci hissəsi ləğv edilsin.
7. Bu qərar 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.
8. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.
9. Aparatın Kənd təsərrüfatı statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.
10. Qərarın icrasına nəzarət aparatın Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədr** **Tahir Budaqov**

**Əlavə 1**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 25 noyabr tarixli, 33/11 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**1-uçot №-li forma**

**Malların (işlərin və xidmətlərin) təqdim edilməsinə dair**

**AİLƏ KƏNDLİ TƏSƏRRÜFATININ ƏMƏLİYYATLARININ**

**UÇOT KİTABI**

Məcəllələr

**20_____ il üçün**

| **Malların (işlərin və xidmətlərin) təqdim edilməsi ilə bağlı əməliyyatlar** | | | |
|---|---|---|---|
| Tarix (gün, ay, il) | Satılmış malların, görülmüş işlərin, göstərilmiş xidmətlərin | | Dövriyyə (əldə olunmuş vəsait), manatla |
| | adı | həcmi | |
| A | B | C | 1 |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |
| **Cəmi** | **x** | **x** | |

**Əlavə 2**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 25 noyabr tarixli, 33/11 nömrəli qərarı ilə təsdiq edilmişdir

**“Malların (işlərin və xidmətlərin) təqdim edilməsinə dair ailə kəndli təsərrüfatının əməliyyatlarının uçot kitabı” 1-uçot №-li formanın doldurulmasına dair**

**G Ö S T Ə R İ Ş**

1. “Malların (işlərin və xidmətlərin) təqdim edilməsinə dair ailə kəndli təsərrüfatının əməliyyatlarının uçot kitabı” 1-uçot №-li forma (bundan sonra – uçot kitabı) ailə kəndli təsərrüfatlarının öz dövriyyəsinin uçotunu xüsusi uçot kitabı üzrə aparılmasını təmin etmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş “Ailə kəndli təsərrüfatının uçotunun aparılması Qaydaları”na uyğun hazırlanmışdır. Ailə kəndli təsərrüfatının illik dövriyyəsinə dair məlumatlar “Ailə kəndli təsərrüfatının dövriyyəsi haqqında” 1-AKT №-li illik statistika hesabatı formasında əks etdirilir.

2. Uçot kitabında malların (işlərin və xidmətlərin) təqdim edilməsi ilə bağlı ailə kəndli təsərrüfatı tərəfindən il ərzində həyata keçirilmiş əməliyyatların tarixi “A” sütununda xronoloji ardıcıllıqla qeyd edilir.

3. “B” sütunu üzrə satılmış malların, görülmüş işlərin, göstərilmiş xidmətlərin adı, “C” sütunu üzrə natura ifadəsində (kq, baş, ədəd, iş, xidmət) həcmi, 1-ci sütun üzrə isə dövriyyəsi, yəni onların satışından əldə olunmuş vəsait manatla göstərilir.

Misal 1: “Məmmədovlar” ailə kəndli təsərrüfatı 2023-cü ilin iyun ayının 10-da 180 kiloqram alma sataraq 90 manat vəsait əldə etmişdir. Bu zaman “A” sütununda “10.06.2023”, “B” sütununda “Alma”, “C” sütununda “180 kq” və 1-ci sütunda “90” qeyd edilməlidir.

Misal 2: “Babayevlər” ailə kəndli təsərrüfatı 2023-cü ilin sentyabr ayının 30-da istifadəsində olan traktorla digər bir təsərrüfat üçün 1 hektar sahədə torpaq şumlanması işi görərək 80 manat vəsait əldə etmişdir. Bu zaman “A” sütununda “30.09.2023”, “B” sütununda “Torpaq şumlanması”, “C” sütununda “1 hektar” və 1-ci sütunda “80” qeyd edilməlidir.

4. 1-ci sütun üzrə sonuncu “Cəmi” sətrində il ərzindəki dövriyyə, yəni həmin ildə satılmış mallardan, görülmüş işlərdən, göstərilmiş xidmətlərdən əldə olunmuş vəsaitin ümumi məbləği manatla göstərilməklə “Ailə kəndli təsərrüfatının dövriyyəsi haqqında” 1-AKT № -li illik statistika hesabatı formasında yazılır.

**Əlavə 3**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 25 noyabr tarixli, 33/11 nömrəli qərarı ilə təsdiq edilmişdir

**1 - AKT №-li forma**
**İllik**

**S T A T İ S T İ K A H E S A B A T I**

**Ailə kəndli təsərrüfatının dövriyyəsi haqqında**

Hesabat təqdim edən ailə kəndli təsərrüfatının:

adı ________________________________________

Hesabat ailə kəndli təsərrüfatları tərəfindən yanvar ayının 20-dək uçotda olduğu bələdiyyə orqanına təqdim edilir.

inzibati ərazi vahidinin və yaşayış məntəqəsinin adı
göstərilməklə dəqiq ünvanı______________________

____________________________________________

reyestr kitabında şəxsi hesab nömrəsi _____________

20___ il üzrə

| Göstəricinin adı | Manat |
|---|---|
| Ailə kəndli təsərrüfatının illik dövriyyəsi * | |

*) dövriyyə - malların (işlərin və xidmətlərin) təqdim edilməsi ilə bağlı əməliyyatların ümumi dəyəri, habelə satışdankənar gəlir.

Təsərrüfat başçısının _______________________ ___________ "___"___________ 20___ il
adı, soyadı imza

**Əlavə 4**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 25 noyabr tarixli, 33/11 nömrəli qərarı ilə təsdiq edilmişdir

**1-reyestr №-li forma**

**_____________________________________________ bələdiyyə orqanı üzrə**

**AİLƏ KƏNDLİ TƏSƏRRÜFATLARININ UÇOTUNUN REYESTR KITABI**

**Ailə kəndli təsərrüfatının (AKT-nin):** Adı______________________________________________________________________
Reyestr kitabında şəxsi hesab nömrəsi _____
Ünvanı_____________________________________________________________________
Fəaliyyətə başlama tarixi (gün, ay, il) : ___ ___ 20 ___ il

Statusun itirilmə tarixi (gün, ay, il) : ___ ___ 20 ___ il

Ləğv olunma tarixi (gün, ay, il) : ___ ___ 20 ___ il

**I. Ailə kəndli təsərrüfatının üzvlərinin siyahısı**

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Soyadı<br>Adı<br>Atasının adı | | | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 2 | Birinci yazılan şəxslə (təsərrüfat başçısı ilə) qohumluq münasibəti | X | | | | | | |
| 3 | Cinsi (kişi, qadın) | | | | | | | |
| 4 | Doğulduğu tarix (gün, ay, il) və yer | | | | | | | |
| 5 | AKT-yə üzv olma tarixi (gün, ay, il) və EKTİS vasitəsilə təqdim edilən vəsiqənin seriya və nömrəsi | ___ ___ 20___, Üv________ | ___ ___ 20___, Üv________ | ___ ___ 20___, Üv________ | ___ ___ 20___, Üv________ | ___ ___ 20___, Üv________ | ___ ___ 20___, Üv________ | ___ ___ 20___, Üv________ |
| 6 | AKT-də fəaliyyətə başladığı gün, ay, il | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ |
| 7 | AKT-də fəaliyyətinin dayandırdığı gün, ay, il | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ |
| 8 | AKT-nin üzvü statusunun itirilmə tarixi (gün, ay, il) | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ | ___ ___ 20___ |
| 9 | Məşğul olduğu iş və ya peşə (vəzifə) | | | | | | | |

**II. Ailə kəndli təsərrüfatının dövriyyəsi**

| Göstəricinin adı | İllər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 | 2031 | 2032 |
| Ailə kəndli təsərrüfatının illik dövriyyəsi, manat | | | | | | | | | | | |

| Təsərrüfat başçısının imzası | ________ 01.01.2023 | ________ 01.01.2024 | ________ 01.01.2025 | ________ 01.01.2026 | ________ 01.01.2027 | ________ 01.01.2028 | ________ 01.01.2029 | ________ 01.01.2030 | ________ 01.01.2031 | ________ 01.01.2032 | ________ 01.01.2033 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|

**Əlavə 5**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 25 noyabr tarixli, 33/11 nömrəli qərarı ilə təsdiq edilmişdir

**“Ailə kəndli təsərrüfatlarının uçotunun reyestr kitabı” 1-reyestr №-li formanın doldurulmasına dair**

## GÖSTƏRİŞ

### 1. Ümumi müddəalar

1.1. “Ailə kəndli təsərrüfatlarının uçotunun reyestr kitabı” 1-reyestr №-li forma (bundan sonra - reyestr kitabı) bələdiyyə orqanları tərəfindən ailə kəndli təsərrüfatlarının uçotunun xüsusi reyestr kitabı üzrə aparılmasını təmin etmək üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmiş “Ailə kəndli təsərrüfatının uçotunun aparılması Qaydaları”na uyğun hazırlanmışdır.

1.2. Reyestr kitabının titul səhifəsində bələdiyyə orqanının tam adı yazılır.

1.3. Reyestr kitabının hər səhifəsi bir təsərrüfat üçün nəzərdə tutulmuşdur. Səhifənin yuxarı hissəsində ailə kəndli təsərrüfatının adı, şəxsi hesab nömrəsi, ünvanı, fəaliyyətə başlama, statusun itirilmə və ləğv olunma tarixləri qeyd edilir. Ailə kəndli təsərrüfatının illik dövriyyəsinin yuxarı həddi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən həddən çox olduqda, ailə kəndli təsərrüfatının üzvləri bu təsərrüfatçılıq formasından könüllü imtina etdikdə və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda ailə kəndli təsərrüfatı statusunu itirir. Ailə kəndli təsərrüfatının üzvlərindən və ya onların varislərindən heç kim qalmadıqda, ailə kəndli təsərrüfatının istifadə etdiyi torpaq sahəsinə və digər əmlaka mülkiyyət və ya icarə hüququna xitam verildikdə ailə kəndli təsərrüfatı ləğv edilir. Təsərrüfatın şəxsi hesab nömrəsi reyestr kitabının açıldığı dövr ərzində (on il) dəyişilmir.

### 2. Reyestr kitabının doldurulmasına dair izahat

### 2.1. I. Ailə kəndli təsərrüfatının üzvlərinin siyahısı

2.1.1. I bölmə üzrə əvvəlcə ailə kəndli təsərrüfatının başçısının, onun ardınca isə təsərrüfatın digər üzvlərinin soyadı, adı və atasının adı təhrif və ixtisar edilmədən tam yazılmalıdır.

2.1.2. Ailə kəndli təsərrüfatının başçısı dəyişdikdə şəxsi hesabın nömrəsi dəyişmir. Belə hallarda I bölmədə aşağıdakı dəyişikliklər edilməlidir:

- 1-ci sətirdə təsərrüfatın sabiq başçısının soyadı, adı və atasının adı üzərindən xətt çəkilir;

- 2-ci sətrin təsərrüfatın yeni başçısına aid qrafasında mövcud yazının üzərindən xətt çəkilərək əvəzində "X" işarəsi qeyd edilir və həmin sətirdə təsərrüfatın digər üzvlərinin ona münasibətdə qohumluq əlaqələrinə dair müvafiq düzəlişlər edilir.

2.1.3. 2-ci sətirdə təsərrüfat üzvlərinə aid qrafalarda onların təsərrüfat başçısına olan qohumluq münasibəti: "atası", "anası", "əri", "qardaşı", "bacısı", "oğlu", "qızı", "qohumluq əlaqəsi yoxdur" və sair yazılır. Təsərrüfat üzvləri arasında bir-birinə, yəni təsərrüfat başçısına deyil, təsərrüfatın başqa üzvlərindən birinə olan qohumluq münasibətini yazmaq olmaz.

2.1.4. 3-cü sətirdə müvafiq olaraq "kişi" və ya "qadın" sözü yazılır.

2.1.5. 4-cü sətirdə şəxsiyyət vəsiqəsi əsasında hər bir təsərrüfat üzvünün doğulduğu gün, ay, il və yerin adı göstərilir. Bu zaman, Azərbaycanda doğulmuş şəxslər üçün doğum tarixinə dair qeyddən sonra yalnız rayon və yaşayış məntəqəsinin – kəndin, qəsəbənin və ya şəhərin adı göstərilir. Başqa ölkədə doğulmuş şəxslər üçün isə ölkənin adını da göstərmək lazımdır. Bu sətrin qrafalarında doğum tarixi əvəzinə yaş sayının göstərilməsi yolverilməzdir.

2.1.6. 5-ci sətirdə təsərrüfat başçısı da daxil olmaqla təsərrüfat üzvlərinin ailə kəndli təsərrüfatına üzv olma və "Elektron kənd təsərrüfatı" informasiya sistemi (EKTİS) vasitəsilə təqdim edilən vəsiqənin seriyası və 9 rəqəmli nömrəsi (məsələn, Üv 608147392), 6-cı sətirdə fəaliyyətə başlama tarixləri (gün, ay, il) qeyd edilir. Ailə kəndli təsərrüfatı qanunvericiliklə müəyyən edilmiş qaydada uçota alındığı gündən fəaliyyətə başlamış hesab olunur.

2.1.7. 7-ci sətirdə təsərrüfat üzvünün ailə kəndli təsərrüfatında fəaliyyətinin dayandırıldığı, 8-ci sətirdə isə statusunun itirildiyi tarixlər (gün, ay, il) yazılır.

2.1.8. 9-cu sətirdə müvafiq ilin yanvarın 1-i vəziyyətinə təsərrüfat üzvünün məşğul olduğu işin və ya peşənin (vəzifənin) adı qeyd edilir. Ailə kəndli təsərrüfatının üzvləri əkinçilik və heyvandarlıq sahəsində məhsul istehsalı, məhsulların saxlanması, daşınması, emalı və ya satışı ilə məşğul ola bilərlər. Məsələn, "Məmmədovlar" ailə kəndli təsərrüfatı heyvandarlıq məhsullarının istehsalı və emalı ilə məşğuldur. Belə olan halda, 9-cu sətir üzrə sütunlarda "mal-qara yetişdirən", "keçi yetişdirən", "qoyun yetişdirən", "süd məhsullarını emal edən" kimi peşələrin adı yazılır.

2.1.9. Ailə kəndli təsərrüfatı ləğv olunduğu, onun statusu itirildiyi təqdirdə, yaxud təsərrüfatın bütün üzvləri bələdiyyə ərazisindən kənara köçüb getdiyi halda reyestr kitabında həmin təsərrüfatın şəxsi hesabı üzərindən çarpaz xətt çəkilməklə bağlanılır. Bağlanmış şəxsi hesabların nömrəsi sərbəst qalmalı və yeni yaranmış təsərrüfatlara verilməməlidir.

### 2.2. II. Ailə kəndli təsərrüfatının dövriyyəsi

II bölmə üzrə təsərrüfatın illik dövriyyəsi "Malların (işlərin və xidmətlərin) təqdim edilməsinə dair ailə kəndli təsərrüfatının əməliyyatlarının uçot kitabı" 1-uçot №-li formanın məlumatlarına (1-ci sütun üzrə cəmi) əsasən hesabat ili üzrə manatla qeyd edilir. Dövriyyə - malların (işlərin və xidmətlərin) təqdim edilməsi ilə bağlı əməliyyatların ümumi dəyəri, habelə satışdankənar gəlirdir.

© 2025 | e-qanun.az | Bütün Haqqlar Qorunur

Ədliyyə Nazirliyinin İnformasiya - kommunikasiya Texnologiyaları İdarəsi CROCUSOFT